**Azərbaycan Respublikasının "Ətraf mühit ilə bağlı məsələlərdə məlumatın əldə edilməsi, ictimaiyyətin qərar qəbul edilməsində iştirakı və ədalət məhkəməsinin açıq keçirilməsi haqqında" BMT-nin Konvensiyasına qoşulması barəsində**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. 1998-ci il iyunun 25-də Danimarkanın Orhus şəhərində imzalanmış "Ətraf mühit ilə bağlı məsələlərdə məlumatın əldə edilməsi, ictimaiyyətin qərar qəbul edilməsində iştirakı və ədalət məhkəməsinin açıq keçirilməsi haqqında" BMT-nin Konvensiyasına Azərbaycan Respublikası aşağıdakı qeyd-şərtlə qoşulsun:

"Azərbaycan Respublikası "bu Konvensiyanın 16-cı maddəsinin 2-ci bəndinin "b" yarımbəndində göstərilmiş prosedur qaydalarının tətbiqinə tərəfdardır".

2. Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 9 noyabr 1999-cu il
№ 736-IQ

## Ətraf mühit ilə bağlı məsələlərdə məlumatın əldə edilməsi, ictimaiyyətin qərar qəbul edilməsində iştirakı və ədalət məhkəməsinin açıq keçirilməsi haqqında Konvensiya (Orhus Konvensiyası)

*Bu Konvensiyanın tərəfləri,*

İnsanı əhatə edən mühit problemlərinə dair Stokholm Bəyannaməsinin 1-ci prinsipinə *əsaslanaraq,*

Ətraf mühit və inkişafa dair Rio-de-Janeyro Bəyannaməsinin 10-cu prinsipinə *də əsaslanaraq,*

Baş Məclisin Ümumdünya təbiət xartiyası haqqında 28 oktyabr 1982-ci il tarixli 37/7 saylı və İnsanların rifahı naminə sağlam ətraf mühitin təmin olunmasının zəruriliyi haqqında 14 dekabr 1990-cı il tarixli 45/94 saylı qətnamələrinə *də habelə əsaslanaraq,*

Ümumdünya Səhiyyə Təşkilatının 1989-cu il dekabrın 8-də Frankfurt-Mayn şəhərində (Almaniya) "Ətraf mühit və sağlamlıq" mövzusunda birinci Avropa Konfransında qəbul olunmuş Ətraf mühit və sağlamlığa dair Avropa xartiyasına *əsaslanaraq,*

ətraf mühitin mühafizəsi, qorunması, onun vəziyyətinin yaxşılaşdırılması və sabit, ekoloji təhlükəsiz inkişafı təmin etməyin zəruriliyini *təsdiq edərək,*

insan rifahının təmin olunması, əsas insan haqlarının, o cümlədən yaşamaq haqqının həyata keçirilməsi üçün ətraf mühitin adekvat mühafizəsinin zəruriliyini *qəbul edərək,*

hər bir insanın, onun sağlamlığı və firavanlığı üçün əlverişli olan ətraf mühitdə yaşamaq hüququna malik olduğunu, müasir və gələcək nəsillərin səadəti naminə həm fərdi qaydada, həm də başqaları ilə birlikdə ətraf mühiti mühafizə etməyə və yaxşılaşdırmağa borclu olduğunu *da qəbul edərək,*

bu hüququn müdafiəsi və vəzifənin icrasına təminat yaratmaq məqsədilə vətəndaşların ətraf mühit ilə bağlı məsələlər haqqında məlumat əldə etmək imkanının, qərarların qəbul edilməsində iştirak etmək hüququnun və ədalət mühakiməsinin həyata keçirilməsi imkanına malik olmasını və bununla əlaqədar, vətəndaşlara öz hüquqlarını həyata keçirməyə kömək göstərilməsinin zəruri olduğunu *qəbul edərək,*

ictimaiyyətin ətraf mühitə aid məsələlər üzrə məlumatın əldə edilməsi, qərarların qəbul edilməsində iştirakı imkanının təkmilləşdirilməsinin, qəbul edilən qərarların və onların həyata keçirilmə prosesinin keyfiyyətinin artırılmasına və ictimaiyyətin ekoloji problemlər haqqında məlumatlandırılmasının yaxşılaşdırılmasına kömək etdiyini, ictimaiyyətə öz narahatçılığını ifadə etməyə imkan yaratdığını və dövlət orqanlarına belə maraqların uçotunu aparmağa icazə verdiyini *qəbul edərək,*

bununla da, qərarların qəbul edilməsi prosesinin hesabat verilməli və açıq olmasına kömək göstərməsinə, ətraf mühit sahəsində qərarlara ictimai dəstəyin güclənməsinə *çalışaraq,*

dövlət idarəçiliyinin bütün şaxələrində aşkarlığın arzu olunduğunu *qəbul edər*k və qanunverici orqanlara öz fəaliyyətində bu Konvensiyanın prinsiplərinə əməl etməyi *təklif edərək,*

ətraf mühitə dair qərarların qəbul edilməsi prosesində iştirak prosedurları haqqında ictimaiyyətin məlumatlandırılmasının zəruriliyini, onları azad əldə etmək imkanına malik olmalarını, hansı qaydada istifadə edə bilmələrini *də qəbul edərək,*

ətraf mühitin mühafizəsində ayrı-ayrı vətəndaşların, qeyri-hökumət təşkilatlarının və özəl sektorun movqelərinin mühüm əhəmiyyətini *də habelə qəbul edərək,*

ətraf mühit və sabit inkişafla bağlı proseslərin dərindən anlaşılması məqsədilə ekoloji maarifləndirməyə kömək edilməsini, ictimaiyyətin ətraf mühitə və sabit inkişafa təsir göstərən qərarlar haqqında geniş məlumatlandırılmasını, belə qərarların qəbul edilməsi prosesində onun iştirakının maraqlandırılmasını *arzu olunan hesab edərək,*

bununla əlaqədar kütləvi informasiya vasitələrindən, elektron və ya gələcəkdə yaranacaq digər rabitə vasitələrindən istifadənin mühüm rolunu *qeyd edərək,* hökumət səviyyəsində qərarlar qəbul edilməsində ekoloji mülahizələrin tam nəzərə alınmasının mühüm əhəmiyyətini, dövlət orqanlarının, bundan irəli gələn, dəqiq, hərtərəfli və ən yeni ətraf mühitə dair informasiyaya malik olması zərurətini *qəbul edərək,*

ictimaiyyətin mənafeyi naminə dövlət orqanlarının ətraf mühitə dair informasiyaya malik olmalarını *qəbul edərək,*

ictimaiyyət, o cümlədən, təşkilatlar üçün onların qanuni maraqlarının müdafiəsini təmin etmək və qanunu tətbiq etmək məqsədilə səmərəli məhkəmə mexanizmlərinin açıq olmalı olduğunu *hesab edərək,*

istehlakçılara onların ətraf mühitə dair maraqları nəzərə alınmaqla əsaslı seçmə imkanını təmin etmək məqsədilə məhsullar haqqında lazımi məlumatların verilməsinin mühümlüyünü *qeyd edərək,*

genetik dəyişkənliyə məruz qalmış orqanizmlərin bilərəkdən azad edilməsi ilə əlaqədar ictimaiyyətin narahatçılığını, bu sahədə qərarların qəbul edilməsi prosesində aşkarlığın artırılmasının və ictimaiyyətin daha geniş iştirakının zəruriliyini *qəbul edərək,*

bu Konvensiyanın həyata keçirilməsi ilə Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyasının (AİK) regionunda demokratiyanın möhkəmlənməsinə kömək ediləcəyinə *əminlik ifadə edərək,*

bununla əlaqədar, AİK-nın rolunu *qəbul edərək* və xüsusilə, 25 oktyabr 1995-ci il tarixdə Sofiya şəhərində (Bolqarıstan) “Avropa üçün ətraf mühit” mövzusunda üçüncü Konfransda qəbul edilmiş Nazirlərin Bəyanatında bəyənilən Ətraf mühitə dair məlumat əldə etmənin təmin edilməsi və ətraf mühit sahəsində qərarların qəbul edilməsi prosesində ictimaiyyətin iştirakına dair AİK-nın Rəhbər prinsiplərinə *əsaslanaraq,*

25 fevral 1991-ci il tarixdə Espo şəhərində (Finlandiya) qəbul edilmiş Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Konvensiyanın, 17 mart 1992-ci il tarixdə Helsinkidə qəbul edilmiş sənaye qəzalarının transsərhəd təsiri haqqında Konvensiyanın, Transsərhəd su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi haqqında Konvensiyanın və həmçinin digər regional konvensiyaların müvafiq müddəalarını *nəzərə alaraq,*

bu Konvensiyanın qəbul edilməsinin «Avropa üçün ətraf mühit» prosesinin gələcəkdə qüvvətlənməsinə və Nazirlərin 1998-ci ilin iyun ayında Orhus şəhərində (Danimarka) dördüncü Konfransının nəticələrinin inkişafına kömək edəcəyini *dərk edərək,*

aşağıdakılar haqqında *razılaşdılar:*

## Maddə 1
## Məqsəd

İndiki və gələcək nəsillərin hər bir üzvünə onun sağlamlığı və rifahı üçün əlverişli ətraf mühitdə yaşamaq hüququnun müdafiəsinə kömək məqsədilə, hər bir Tərəf bu Konvensiyanın müddəalarına müvafiq olaraq, məlumat əldə etmək imkanı, ictimaiyyətin qərarların qəbul edilməsi prosesində iştirakı və ətraf mühit məsələləri üzrə ədalət mühakiməsinin açıq həyata keçirilməsi hüququnu təmin edir.

**Maddə 2**
**Təriflər**

Bu Konvensiya üçün:

1. “Tərəf” dedikdə, əgər mətndə başqa göstəriş yoxdursa, bu Konvensiyanın razılığa gələn Tərəfi başa düşülür.

2. “Dövlət orqanı” dedikdə aşağıdakılar başa düşülür:

a) milli, regional və digər səviyyədə idarə;

b) milli qanunvericiliyə müvafiq olaraq, dövlətin inzibati funksiyalarını, o cümlədən ətraf mühitə aidiyyəti olan konkret vəzifələr, fəaliyyət və ya xidmət icra edən fiziki və ya hüquqi şəxslər;

c) yuxarıdakı (a) və (b) yarımbəndlərində göstərilən orqan və ya şəxsin nəzarəti altında ətraf mühitə aidiyyəti olan dövlət vəzifələrini və ya funksiyalarını həyata keçirən və ya əhaliyə xidmət göstərən hər hansı digər fiziki və ya hüquqi şəxslər;

d) bu Konvensiyanın Tərəfi olan və Konvensiyanın 17-ci maddəsində göstərilən hər hansı regional iqtisadi inteqrasiya təşkilatının idarəsi.

Məhkəmə və ya qanunverici qismində fəaliyyət göstərən orqan və ya idarələr bu tərifə aid deyildir.

3. “Ətraf mühitə dair məlumat” dedikdə, aşağıdakılar haqqında hər hansı yazılı, audiovizual, elektron və sair maddi formada informasiya başa düşülür:

a) ətraf mühit elementlərinin vəziyyəti, o cümlədən atmosfer havası, su, torpaq, yerin təki, landşaft və təbii obyektlər, bioloji növmüxtəlifliyi və onun komponentləri, o cümlədən genetik dəyişkənliyə məruz qalmış orqanizmlər və bu elementlərin qarşılıqlı təsiri;

b) faktorlar, o cümlədən maddələr, enerji, səs, şüalanma, habelə ətraf mühit sahəsində fəaliyyət və tədbirlər, o cümlədən inzibati tədbirlər, əqdlər, yuxarıdakı a yarımbəndi ilə əhatə olunmuş ətraf mühit elementlərinin vəziyyətinə təsir edən və ya edə biləcək siyasət, qanunvericilik, plan və proqramlar, məsrəflərin və nəticələrin təhlili, ətraf mühitə dair məsələlər üzrə qərarların qəbul edilməsi zamanı istifadə olunan digər iqtisadi təhlil və ehtimallar;

c) insanların sağlamlığı və təhlükəsizliyi, onların həyat şəraiti, ətraf mühit elementlərinin və ya bu elementlər vasitəsilə yuxarıdakı (b) yarımbəndində sadalanan amillərin, fəaliyyət və ya tədbirlərin təsir etdiyi və ya edə biləcəyi mədəniyyət obyektləri, binalar və qurğular.

4. “İctimaiyyət” dedikdə, bir və ya birdən çox fiziki və ya hüquqi şəxs, milli qanunvericiliyə və ya praktikaya müvafiq olaraq, onların assosiasiyaları, təşkilatlar və ya qruplar başa düşülür.

5. “Maraqlı ictimaiyyət” dedikdə, ətraf mühit məsələlərinə dair qərarların qəbul edilməsi prosesinin toxunduğu və ya toxuna biləcəyi və ya bu prosesdə marağı olan ictimaiyyət başa düşülür; ətraf mühitin mühafizəsinə kömək edən və milli qanunvericiliyin hər hansı tələblərinə cavab verən qeyri-hökumət təşkilatları bu tərifin məqsədləri üçün marağı olan təşkilatlar hesab edilir.

## Maddə 3
## Ümumi müddəalar

1. Hər bir Tərəf həmin Konvensiyanın məlumata, ictimaiyyətin iştirakına və ədalət mühakiməsinin açıq həyata keçirilməsinə aid olan müddəalarının icrası qaydalarını tənzim edən zəruri qanunverici, tənzimedici və digər tədbirlər, o cümlədən müddəaların uyğunlaşdırılmasına nail olmaq üçün tədbirlər, habelə onların tətbiqinin təmin edilməsi və həmin Konvensiyanın müddəalarının həyata keçirilməsi üçün dəqiq, açıq və razılaşdırılmış qurumun yaradılması və saxlanması məqsədilə lazımi tədbirlər görür.

2. Hər bir Tərəf ictimaiyyətin ətraf mühitə aid məsələlər üzrə məlumat əldə etmək üçün istiqamətləndirilməsinin təmin edilməsində, qərarların qəbul edilməsi və ədalət mühakiməsinin həyata keçirilməsində ictimaiyyətin iştirakının asanlaşdırılmasına vəzifəli şəxslərin və dövlət orqanlarının köməklik göstərməyini təmin etməyə çalışır.

3. Hər bir Tərəf ətraf mühit problemləri üzrə ictimaiyyətin ekoloji maarifləndirilməsinə və məlumatlandırma səviyyəsinin, xüsusilə, məlumat əldə etmə imkanının, qərarların qəbul edilməsində iştirakının və ətraf mühitə dair məsələlər üzrə ədalət mühakiməsinin açıq həyata keçirilməsinin yüksəldilməsinə kömək edir.

4. Hər bir Tərəf ətraf mühitin mühafizəsinə kömək edən birliklərə, təşkilatlara və ya qruplara müvafiq yardım edir, onların lazımi tanınmasını və özünün milli hüquq sisteminin bu öhdəliyə müvafiqliyini təmin edir.

5. Həmin Konvensiyanın müddəaları hər hansı Tərəfin ətraf mühit məsələləri üzrə Konvensiyada nəzərdə tutulandan daha geniş məlumat əldə etmək imkanlarını, qərarların qəbul edilməsində ictimaiyyətin daha fəal iştirakını və ədalət mühakiməsinin daha açıq həyata keçirilməsi imkanlarını nəzərdə tutan tədbirlər tətbiq etməsi hüquqlarına toxunmur.

6. Həmin Konvensiya ətraf mühit məsələləri üzrə məlumat əldə etmək imkanı, ictimaiyyətin qərarların qəbul edilməsi prosesində iştirakı və ədalət mühakiməsinin açıq həyata keçirilməsi üzrə mövcud hüquqların hər hansı zəiflədilməsini tələb etmir.

7. Hər bir Tərəf ətraf mühitə dair məsələlər üzrə beynəlxalq qərarların qəbul edilməsi proseslərində və ətraf mühitə dair məsələlər üzrə beynəlxalq təşkilatlar çərçivəsində həmin Konvensiyanın prinsiplərinin tətbiqinə kömək edir.

8. Hər bir Tərəf həmin Konvensiyanın müddəalarına müvafiq olaraq öz hüquqlarını həyata keçirən şəxslərin fəaliyyətlərinə görə cəzaya, təqiblərə və ya hər hansı formada sıxışdırmalara məruz qalmayacağını təmin edir. Həmin müddəa məhkəmə xərcləri ilə əlaqədar milli məhkəmələr tərəfindən ədalətli xərclərin ödənilməsi haqqında qərarların çıxarılması səlahiyyətlərinə toxunmur.

9. Həmin Konvensiyanın müvafiq müddəaları həddində ictimaiyyət vətəndaşlıq, milli mənsubiyyət və ya yaşayış yeri, hüquqi şəxsə münasibətdə isə qeydiyyata alındığı yer və ya faktiki fəaliyyət mərkəzi əlamətlərinə görə ayrı-seçkilik olmadan ətraf mühitə aid məsələlər üzrə məlumat əldə etmək, qərarların qəbul edilməsində iştirak etmək və ədalət mühakiməsinin açıq həyata keçirilməsi imkanlarına malikdir.

## Maddə 4
## Ətraf mühitə dair məlumatın əldə edilməsi

1. Hər bir Tərəf təmin edir ki, bu maddənin sonrakı bəndlərinə əməl edilməsi şərti ilə, ətraf mühitə dair məlumatın təqdim edilməsi barədə müraciətə cavab olaraq, dövlət orqanları milli qanunvericiliyə əsasən belə məlumatı, o cümlədən faktiki sənədlərin sürətlərini sorğu verildiyi və aşağıdakı b yarımbəndinə müvafiq olduğu hallarda ictimaiyyətə sadalanan şərtlərə əsasən təqdim etsinlər:

a) marağını ifadə etmək zərurəti olmadan;

b) sorğu olunan formada, əgər

i) dövlət orqanının onu digər formada təqdim etməyə əsası yoxdursa, məlumatın bu formada verilməsini əsaslandıran səbəblər göstərilməlidir.

ii) məlumat ictimaiyyətə digər formada təqdim olunmamışdırsa.

2. Yuxarıdakı 1-ci bənddə sadalanan ətraf mühitə dair məlumat ən qısa müddətdə, lakin sorğu barədə müraciət verildikdən bir aydan gec olmayaraq, həmin məlumatın həcmi və mürəkkəbliyi əsas verdikdə isə müraciət verildikdən iki aydan gec olmayaraq təqdim edilir. Müraciət verən bu müddətin uzadılması və qəbul edilən qərarın səbəbləri barədə məlumatlandırılır.

3. Ətraf mühitə dair məlumatın təqdim edilməsi haqqında müraciətə imtina edilə bilər, əgər:

a) sorğu edilən ətraf mühitə dair məlumat müraciətin göndərildiyi dövlət orqanında yoxdursa;

b) müraciət tam əsassızdırsa və ya çox ümumi şəkildə ifadə olunmuşsa;

c) müraciət yekun hazırlıq mərhələsində olan və ya dövlət orqanlarının daxili yazışma materiallarına aiddirsə və bu istisna milli qanunvericilik və ya mövcud praktika ilə nəzərdə tutulursa, lakin bu zaman ictimaiyyətin belə məlumatı almaqda maraqlı olması nəzərə alınmalıdır.

4. Ətraf mühitə dair məlumatın təqdim edilməsi haqqında müraciətə imtina edilə bilər, əgər belə məlumatın yayılması aşağıdakılara mənfi təsir edərsə:

a) dövlət orqanlarının fəaliyyətinin məxfiliyinə, belə məxfilik milli qanunvericilikdə nəzərdə tutulmuşsa;

b) beynəlxalq münasibətlərə, milli müdafiəyə və ya dövlət təhlükəsizliyinə;

c) ədalət mühakiməsinin həyata keçirilməsinə, şəxslərin ədalətli məhkəmə istintaqına məruz qalmasına və ya dövlət orqanlarının cinayət və ya iltizam xarakterli təhqiqat aparmaq qabiliyyətinə;

d) kommersiya və sənaye məlumatlarının məxfiliyinə, əgər bu məxfilik qanuni iqtisadi maraqları müdafiə etmək məqsədilə hüquqla qorunursa. Bu halda, ətraf mühitə atılan tullantılar haqqında məlumat açıqlanmalıdır;

e) əqli mülkiyyət hüquqlarına;

f) fiziki şəxsə aid şəxsi məlumatların və/və ya arxivlərin məxfiliyinə, müvafiq şəxs milli qanunvericiliyə əsasən belə məlumatın ictimaiyyətə verilməsinə razılıq verməmişsə;

g) sorğu edilən məlumatı təqdim etmiş üçüncü tərəfin maraqlarına, əgər bu tərəf bunu etməyə hüquqi öhdəliklə bağlı deyilsə və ya onun üzərinə belə öhdəlik qoyulmamışsa, habelə əgər o müvafiq materialın açıqlanmasına razılıq vermirsə;

h) bu məlumatın aid olduğu ətraf mühitə, məsələn nadir növlərin çoxalma yerlərinə.

Bu məlumatın açıqlanmasında ictimaiyyətin maraqlı olmasını və sorğu edilən məlumatın ətraf mühitə atılan tullantılara aid olmasını nəzərə alaraq imtina üçün yuxarıda göstərilən əsaslar məhdud təfsir edilməlidir.

5. Dövlət orqanının sorğu edilən məlumata malik olmadığı hallarda, həmin dövlət orqanı ən qısa müddətlərdə müraciət edən şəxsi həmin məlumatın alınması üçün müraciət olunmalı müvafiq dövlət orqanı barədə məlumatlandırır və ya müraciəti həmin orqana göndərir, bu barədə isə müraciət edəni xəbərdar edir.

6. Hər bir Tərəf yuxarıdakı 3 və 4-cü bəndlərdə nəzərdə tutulmuş açıqlanmalı olmayan məlumatı digər məlumatdan ayırmaq mümkün olduğu hallarda, açıqlanmalı olmayan məlumatın məxfiliyinə xələl gətirmədən, dövlət orqanlarının sorğu edilən məlumatın qalan hissəsini təqdim etməsini təmin edir.

7. Məlumatın təqdim edilməsi barədə müraciət yazılı şəkildə göndərilmişsə və müraciət edənin xahişi ilə müraciətə imtina yazılı verilir. İmtinada onun səbəbləri göstərilir və qəbul edilmiş qərarın baxılması prosedurasının mümkünlüyü barədə bu Konvensiyanın 9-cu maddəsinə əsasən məlumat verilir. Məlumatın təqdim edilməsi barədə müraciətə imtina ən qısa müddətlərdə, lakin bir aydan gec olmamaqla, məlumat mürəkkəb olduqda isə, müraciət verildikdən ən geci iki ay müddətində verilir. Müraciət edən bu müddətin hər hansı uzadılması və onun səbəbləri barədə məlumatlandırılır.

8. Hər bir Tərəf öz dövlət orqanlarına məlumat təqdim etmək əvəzində haqq almağa icazə verə bilər, lakin həmin haqqın miqdarı ədalətli olmalıdır. Məlumat təqdim etmək əvəzində haqq almağı nəzərdə tutan dövlət orqanları rüsumların alınmasına əsas olan tarif dərəcələri, rüsumların alınması və rüsum verməkdən azad olma şərtləri, haqqı əvvəlcədən verilməklə məlumat təqdim etmə halları haqqında müraciət verənləri məlumatlandırırlar.

## Maddə 5
## Ətraf mühitə dair məlumatın toplanması və yayılması

1. Hər bir Tərəf aşağıdakıları təmin edir:

a) dövlət orqanları onların funksiyalarına aid olan ətraf mühitə dair məlumata malik olmalarını və onu təzələməsini;

b) ətraf mühitə əhəmiyyətli təsir edə biləcək planlaşdırılan, həyata keçirilən fəaliyyət barədə məlumatların dövlət orqanlarına lazımi daxil olmasını təmin edən zəruri sistemlərin yaradılmasını;

c) insanın fəaliyyəti və ya təbii xarakterli səbəblər nəticəsində yaranan və insanın sağlamlığı və ya ətraf mühit üçün gözlənilən hər hansı təhlükə hallarında, zərərin qarşısının alınmasına və ya onun təsirini yüngülləşdirilməsinə yönəlmiş tədbirlərin qəbuluna imkan verən bütün məlumatın potensial təhlükənin təsir edəcəyi cəmiyyət üzvləri arasında dərhal və tərəddüd edilmədən yayılmasını.

2. Hər bir Tərəf, milli qanunvericilik əsasında, dövlət orqanları tərəfindən ictimaiyyətə ətraf mühitə dair məlumat verilməsi prosedurasının başa düşülən, ətraf mühitə dair məlumatın isə aşağıda nəzərdə tutulan yollarla asan əldə olunmasını təmin edir:

a) müvafiq dövlət orqanlarının sərəncamında olan ətraf mühitə dair məlumatın növü, əhatə dairəsi və belə məlumatın verilməsi və açıqlanmasının mümkünlüyünü müəyyən edən əsas şərtlər və onların əldə edilmə prosesi haqqında ictimaiyyətə kifayət qədər məlumat verilməsi ilə;

b) göstərilən praktik tədbirlərin təşkili və həyata keçirilməsi ilə:

i) siyahıların, registrlərin və ya arxivlərin ictimaiyyət üçün açıq olmasının təmin edilməsi;

ii) ictimaiyyətin bu Konvensiyaya müvafiq olaraq məlumat əldə etməsinə vəzifəli şəxslərinköməklik göstərməsi vəzifəsinin müəyyən edilməsi;

iii) rabitə məntəqələrinin ayrılması;

c) yuxarıdakı b (i) yarımbəndinə müvafiq olaraq siyahı, registr və ya arxivlərdə olan ətraf mühitə dair məlumatın pulsuz əldə edilmə imkanı ilə.

3. Hər bir Tərəf ictimaiyyət üçün ümumi rabitə vasitələri ilə açıq olan elektron məlumat bazalarında ətraf mühitə dair məlumatın miqdarının tədricən artırılmasını təmin edir. Bu məlumat elektron formadadırsa, ona aşağıdakılar aid olmalıdır:

a) ətraf mühitin vəziyyətinə dair aşağıdakı 4-cu bənddə göstərilən məruzələr;

b) ətraf mühit və ya ona aid olan məsələlər üzrə qanunvericilik aktlarının mətnləri;

c) müvafiq hallarda, ətraf mühit sahəsində siyasət, planlar və proqramlar və ya ona aid olan məsələlər üzrə sənədlər, habelə təbiəti mühafizə müqavilələri;

d) digər məlumat, belə məlumatın mövcudluğu bu Konvensiyanın həyata keçirilməsi üzrə milli qanunvericiliyin tətbiqini asanlaşdırırsa;

Bir şərtlə ki, belə məlumatlar artıq elektron formada mövcud olsun.

4. Hər bir Tərəf üç və ya dörd ildən artıq olmayan müddət ərzində, mütəmadi olaraq, ətraf mühitin vəziyyətinə dair milli məruzələri, o cümlədən ətraf mühitin keyfiyyəti və yüklənməsi barədə məlumatları nəşr edir və yayır.

5. Hər bir Tərəf öz qanunvericiliyi çərçivəsində aşağıdakıları yaymaq məqsədilə tədbirlər görür:

a) dövlət idarəçiliyinin müxtəlif səviyyələrində ətraf mühit sahəsi üçün hazırlanmış qanunvericilik aktları və direktiv sənədləri, o cümlədən strategiya, siyasət, proqram və fəaliyyət planlarını və onların həyata keçirilməsinin gedişi haqqında məruzələri;

b) ətraf mühit məsələlərinə dair beynəlxalq müqavilələri, konvensiyaları və sazişləri;

c) müvafiq hallarda ətraf mühit məsələlərinə dair digər mühüm beynəlxalq sənədləri.

6. Hər bir Tərəf fəaliyyətinin və məhsullarının ətraf mühitə təsiri barədə ictimaiyyəti məlumatlandıran, fəaliyyəti ətraf mühitə əhəmiyyətli təsir edən əməliyyat müəssisələrini həvəsləndirir və bunu müvafiq hallarda, könüllü komarkirovka və ekoloji ekspertizadan istifadə etmə əsasında həyata keçirir.

7. Hər bir Tərəf:

a) ekoloji siyasət məsələləri üzrə daha əhəmiyyətli təkliflərin işlənib hazırlanması üçün münasib və mühüm hesab etdiyi faktiki məlumatı və onun təhlilini nəşr edir;

b) bu Konvensiyanın əhatə dairəsinə daxil olan məsələlər üzrə ictimaiyyətlə özünün əlaqələri barədə mövcud izahlı materialları nəşr edir və ya sair şəkildə onların açıqlanmasını təmin edir;

c) bütün səviyyələrdə dövlət orqanlarının ətraf mühitə aid olan funksiyalarının həyata keçirilməsi və ya əhaliyə göstərilən xidmətlər barədə məlumatları lazımi qaydada təqdim edir.

8. Hər bir Tərəf istehlakçılara, ətraf mühitə maraqları baxımından seçmək imkanı vermək üçün ictimaiyyətə məhsullar haqqında kifayət qədər məlumatların verilməsini təmin edən mexanizmlər işləyib hazırlayır.

9. Hər bir Tərəf hesabatların təqdim edilməsinin standartlaşdırılmış sistemi əsasında tərtib edilən, müəyyən struktura malik, kompüterləşdirilmiş və ictimaiyyət üçün açıq olan məlumat bazasından istifadə etməklə, lazımi hallarda isə beynəlxalq səviyyələrdə həyata keçirilən proseslər də nəzərə alınmaqla, çirklənmələrin razılaşdırılmış ümummilli kadastr və registr sisteminin tədricən genişləndirilməsi üçün tədbirlər görür. Bu sistemə konkret fəaliyyət növlərinin həyata keçirilməsi nəticəsində, o cümlədən sudan, enerjidən və ehtiyatlardan istifadə zamanı ətraf mühitin müxtəlif sferalarına, həmçinin sənaye obyektlərinin hüdudları daxilində və ya onların hüdudlarından kənarda yerləşən emal, tullantı sahələrinə müəyyən növ maddələrin və məhsulların daxil olması, ayrılması və daşınması haqqında məlumatlar daxil ola bilər.

10. Bu maddədə nəzərdə tutulanlar, Tərəflərin 4-cu maddənin 3-cü və 4-cü bəndlərinin müddəalarına müvafiq olaraq müəyyən ətraf mühitə dair məlumatı açıqlamaqdan imtina etmək hüququna zərər yetirə bilməz.

## Maddə 6
## Konkret fəaliyyət növləri üzrə qərarların qəbul edilməsində ictimaiyyətin iştirakı

1. Hər bir tərəf:

a) 1 saylı əlavədə göstərilən, planlaşdırılan fəaliyyət növlərinə icazə verilməsinin məqsədəmüvafiqliyi məsələsinə dair qərarlara bu maddənin müddəalarını tətbiq edir;

b) öz milli qanunvericiliyinə müvafiq olaraq, bu maddənin müddəalarını, habelə 1 saylı əlavədə göstərilməyən, lakin ehtimal olunan və ətraf mühitə əhəmiyyətli təsir edə biləcək fəaliyyət növləri üzrə qərarlar qəbul edilməsinə tətbiq edir. Tərəflər, bu məqsədlə, belə planlaşdırılan fəaliyyət növünün göstərilən müddəalarla əhatə olunub-olunmamasını müəyyənləşdirir;

c) milli qanunvericiliklə nəzərdə tutulduğu halda, bu maddənin müddəalarını milli müdafiə məqsədlərinə xidmət edən planlaşdırılan fəaliyyət növünə tətbiq etməmək barədə hər bir konkret halda qərar qəbul edə bilər, əgər Tərəf hesab etsə ki, bu müddəaların tətbiqi belə məqsədlərə mənfi təsir edəcəkdir.

2. Maraqlı ictimaiyyət ətraf mühitə dair məsələlər üzrə qərarların qəbul edilməsi prosedurasının başlanğıc mərhələsində şəraitdən asılı olaraq, açıq bildiriş yolu ilə, yaxud da fərdi qaydada adekvat, vaxtında və səmərəli, o cümlədən aşağıdakılar barədə məlumatlandırılır:

a) planlaşdırılan fəaliyyət növü və əsasında qərar qəbul ediləcək ərizə;

b) mümkün qərarların xarakteri və ya qərarın layihəsi;

c) qərar qəbul etmək üçün məsul olan dövlət orqanı;

d) nəzərdə tutulan prosedura, o cümlədən bu məlumatın təqdim edilməsi yolu və vaxtı, habelə:

i) proseduranın həyata keçirilməsinin başlanması haqqında;

ii) ictimaiyyətin iştirakı imkanları haqqında;

iii) nəzərdə tutulan hər hansı ictimai dinləmənin yeri və vaxtı haqqında;

iv) müvafiq məlumatın əldə edilməsi mümkün olan dövlət orqanı və müvafiq məlumatın ictimaiyyətin müzakirəsinə verildiyi yer haqqında;

v) təkliflərin və ya sualların verilməsi mümkün olan dövlət orqanı və ya hər hansı başqa rəsmi orqan və təklif və ya sualların təqdim edilmə müddətləri haqqında;

vi) sərəncamında olan və planlaşdırılan fəaliyyət növü barədə malik olduğu ətraf mühitə dair məlumat haqqında;

e) həmin fəaliyyət növünün ətraf mühitə təsirinin qiymətləndirilməsinin milli və ya transsərhəd prosedurası ilə əhatə olunması.

3. İctimaiyyətin iştirakı prosedurları müxtəlif mərhələlərin həyata keçirilməsinin optimal müddətlərini nəzərdə tutur ki, bunlar da, yuxarıda göstərilən 2-ci bəndə müvafiq olaraq, ictimaiyyətin məlumatlandırılması və ətraf mühitə dair məsələlər üzrə qərarların qəbul edilməsi prosesinin hazırlanması, orada ictimaiyyətin səmərəli iştirakı üçün müddətlərin kifayət qədər olmasını təmin edir.

4. Hər bir Tərəf müxtəlif variantların nəzərdən keçirilməsi üçün bütün imkanların mövcud olduğu və ictimaiyyətin səmərəli iştirakının təmin oluna biləcəyi ilkin mərhələdən onun iştirakını təmin edir.

5. Hər bir Tərəf mümkün ərizəçilərin icazə alması üçün ərizə verməzdən əvvəl, ictimaiyyətin maraqlı dairələrini müəyyən etməsini, müzakirələri keçirməsini və

ərizənin məqsədləri barədə məlumatı təqdim etməsini, zəruri hallarda, həvəsləndirə bilər.

6. Hər bir Tərəf bu maddədə adıçəkilən qərarların qəbul edilməsi prosesinə aid olan, ictimaiyyətin iştirakı prosedurasının həyata keçirilməsi anı üçün özünün sərəncamında olan və Tərəflərin bu Konvensiyanın 4-cü maddəsinin 3-cü və 4-cü bəndlərinə müvafiq olaraq, müəyyən məlumatı açıqlamaqdan imtina etmək hüququna zərər vurmadan, ictimaiyyətin maraqlı dairələrindən sorğu alındığı təqdirdə daxil olan bütün məlumatı, öyrənmək məqsədilə ictimaiyyətin maraqlı dairələri üçün, milli qanunvericiliyə əsasən, pulsuz əldə etmə imkanını təmin etməyi səlahiyyətli dövlət orqanlarından tələb edir. Müvafiq məlumata bu Konvensiyanın 4-cü maddəsinin müddəalarına zərər vurmadan aşağıdakılar aid olmalıdır:

a) sənaye obyektinin təsviri və nəzərdə tutulan fəaliyyətin fiziki və texniki xarakteristikaları, o cümlədən nəzərdə tutulan qalıqların və tullantıların qiymətləndirilməsi;

b) planlaşdırılan fəaliyyətin ətraf mühitə əhəmiyyətli təsirinin təsviri;

c) təsirin, o cümlədən tullantıların qarşısının alınmasını və/və ya azaldılmasını nəzərdə tutan tədbirlərin təsviri;

d) yuxarıda göstərilənin qeyri-texniki xülasəsi;

e) ərizəçi tərəfindən nəzərdən keçirilən əsas alternativlərin planı;

f) milli qanunvericiliyə müvafiq olaraq, dövlət orqanına göndərilən əsas məruzələr və təkliflər, maraqlı ictimaiyyətə isə yuxarıdakı 2-ci bəndə əsasən məlumat təqdim edilməlidir.

7. İctimaiyyətin iştirakı prosedurаları, ictimaiyyətə planlaşdırılan fəaliyyətə aidiyyəti olduğunu hesab etdiyi istənilən qeydlərini, məlumatını, təhlilini və nöqteyi-nəzərini yazılı şəkildə və ya, zəruri hallarda, ictimai dinləmələrin gedişində və ya ərizəçinin iştirakı ilə məsələnin nəzərdən keçirilməsi zamanı təqdim etməyə imkan yaradır.

8. Hər bir Tərəf ictimaiyyətin iştirakının nəticələrini müvafiq qərarda lazımi qaydada ifadə olunmasını təmin edir.

9. Hər bir Tərəf dövlət orqanı tərəfindən qərar qəbul olunduqdan sonra lazımi proseduralara müvafiq olaraq ictimaiyyətin bu qərar barədə dərhal məlumatlandırılmasını təmin edir.

10. Hər bir Tərəf dövlət orqanı tərəfindən 1-ci bənddə göstərilən fəaliyyətin həyata keçirilməsi şərtlərinə yenidən baxıldığı və ya təzələndiyi, habelə məqsədəmüvafiq olduğu hallarda, bu maddənin 2-9-cu bəndlərinin müddəalarının mutatis mutandis tətbiq edilməsini təmin edir.

11. Hər bir tərəf öz milli qanunvericiliyi çərçivəsində bu maddənin müddəalarını genetik dəyişkənliyə məruz qalmış orqanizmləri ətraf mühitə bilərəkdən buraxmaq üçün icazə verilməsinə aid olan qərarlara mümkün olan dərəcədə və lazımi qaydada tətbiq edir.

**Maddə 7**
**Ətraf mühitlə əlaqədar plan, proqram və siyasətə dair məsələlərin həllində ictimaiyyətin iştirakı**

Hər bir Tərəf ətraf mühitə dair plan və proqramların hazırlanması prosesində ictimaiyyətə zəruri məlumatları təqdim etməklə, açıq və ədalətli qurum daxilində, ictimaiyyətin iştirakına dair müvafiq praktiki və/və ya digər tədbirlər nəzərdə tutur. Bu qurumun daxilində 6-cı maddənin 3-cü, 4-cü və 8-ci bəndləri tətbiq edilir. Müvafiq dövlət orqanı həmin Konvensiyanın məqsədlərini nəzərə alaraq ictimaiyyətin bu prosesdə iştirak edə biləcək dairəsini müəyyən edir. Hər bir Tərəf, imkan daxilində, ətraf mühitə dair siyasətin hazırlanmasında ictimaiyyətin iştirakı imkanını təmin etməyə səy göstərir.

**Maddə 8**
**Bilavasitə tətbiq olunan normativ müddəaların və ümum tətbiq olunan hüquqi öhdəliklərin hazırlanmasında ictimaiyyətin iştirakı**

Hər bir Tərəf dövlət orqanları tərəfindən hazırlanan və ətraf mühitə əhəmiyyətli təsir göstərən, bilavasitə tətbiq olunan normativ müddəaların və digər ümum tətbiq olunan hüquqi öhdəliklərin hazırlanmasının seçmə üçün imkanlarının hələ açıq olduğu müvafiq mərhələsində, ictimaiyyətin səmərəli iştirakına yardım etmək üçün səylər göstərir. Bu məqsədlə aşağıdakı tədbirlər qəbul edilir:

a) səmərəli iştirakın təmin edilməsi üçün kifayət olan müddətlər müəyyən edilir;

b) qaydaların layihələri nəşr edilir və ya sair şəkildə ictimaiyyətə təqdim edilir;

c) ictimaiyyətə bilavasitə və ya nümayəndəli məşvərət orqanları vasitəsilə öz qeydlərini təqdim etməyə imkan yaradılır.

İctimaiyyətin iştirakının nəticələri maksimum mümkün olan dərəcədə nəzərə alınır.

**Maddə 9**
**Ədalət mühakiməsinin açıqlığı**

1. Hər bir Tərəf hər hansı şəxsin məlumat əldə etmək barədə bu Konvensiyanın 4-cü maddəsinə əsasən verdiyi müraciətinə baxılmadığını, qanunsuz olaraq tam və ya qismən rədd edildiyini, qeyri-adekvat təmin edildiyini və ya bu müraciətə göstərilən maddənin müddəalarına müvafiq olmayan hər hansı sair münasibətdə yanaşmanın aşkar olunduğunu hesab etdiyi təqdirdə, öz milli qanunvericiliyinə uyğun olaraq, həmin şəxsə qəbul edilmiş qərarın məhkəmədə və ya qanuna əsasən təsis edilən digər müstəqil və bitərəf orqanda baxılması prosedurasının açıqlığını təmin edir.

Qərarın məhkəmədə belə baxılması nəzərdə tutulduğu hallarda, Tərəf, habelə, bu şəxs üçün qanunla müəyyən olunan, ödənc tələb etməyən və ya az miqdarda tələb edən, dövlət orqanı tərəfindən təkrar baxılması və ya məhkəmə olmayan müstəqil və bitərəf orqan tərəfindən baxılması üçün sürətli proseduranı təmin edir.

Bu, 1-ci bəndə əsasən qəbul edilən qəti qərarlar, sərəncamında müvafiq məlumat olan dövlət orqanı üçün məcburi xarakter daşıyır. Məlumat təqdim edilməsi barədə müraciətə həmin bəndə əsasən imtina edildikdə səbəblər yazılı formada göstərilir.

2. Hər bir Tərəf özünün milli qanunvericiliyinə müvafiq olaraq, bu Konvensiyanın 6-cı maddəsinin müddəalarına əməl etmək, aşağıdakı 3-cü bənddə və bu Konvensiyanın digər müvafiq müddəalarına zərər vurmamaq şərti ilə, milli qanunvericilikdə nəzərdə tutulduğu hallarda isə ona müvafiq olaraq, hüquqi və prosessual baxımdan hər hansı qərarın, hərəkətin və ya hərəkətsizliyin qanuniliyi barədə iddia qaldırmaq məqsədilə, məhkəmədə və/və ya qanuna əsasən təsis edilmiş digər müstəqil və bitərəf orqanda qəbul edilmiş qərarlara baxılması prosedurasının aşağıda göstərilən müvafiq ictimaiyyət nümayəndələri üçün açıqlığını təmin edirlər:

a) kifayət qədər maraqlılıq ifadə edənlərə və ya alternativ variant kimi,

b) bu və ya digər hüququn pozulmasının baş verdiyini hesab edənlərə, əgər bu müvafiq Tərəfin inzibati prosessual normaları ilə şərtləndirilirsə. Kifayət qədər maraqlılığın və bu və ya digər hüququn pozulmasının mövcudluğu milli qanunvericiliyin müddəaları və bu Konvensiya həddində maraqlı ictimaiyyətə ədalət mühakiməsinin geniş açıqlığının verilməsi məqsədinə müvafiq olaraq müəyyən edilir.

Bununla əlaqədar, yuxarıdakı (a) yarımbəndinin məqsədi üçün bu Konvensiyanın 2-ci maddəsinin 5-ci bəndində göstərilən tələblərə cavab verən hər hansı qeyri-hökumət təşkilatının maraqlı olması kifayətdir.

Yuxarıdakı (b) yarımbəndinin məqsədi üçün belə təşkilat da öz hüquqlarının pozulması haqqında müraciət edə bilər. Bu, 2-ci bəndin müddəaları inzibati orqanlarda ilkin araşdırma prosedurasından istifadə imkanlarını istisna etmir və milli qanunvericilikdə nəzərdə tutulduğu hallarda, məhkəmə baxışı proseduralarına müraciət etməzdən əvvəl inzibati araşdırma proseduralarının keçilməsi barədə tələblərə toxunmur.

3. Yuxarıdakı 1-ci və 2-ci bəndlərdə nəzərdə tutulan proseduralara əlavə olaraq və onlara zərər vurmadan, hər bir Tərəf, özünün milli qanunvericiliyində nəzərdə tutulan tələblərə, əgər belələri varsa, cavab verən ictimaiyyət nümayəndələri ətraf mühitə dair milli qanunvericiliyin tələblərini pozan fərdi şəxslərin və ya dövlət orqanlarının hərəkətləri və ya hərəkətsizliyi barədə iddialar qaldırmaq üçün inzibati və məhkəmə proseduralarının açıqlığından istifadə etmək imkanına malik olmalıdırlar.

4. Yuxarıdakı 1-ci bənddə nəzərdə tutulan proseduraya əlavə olaraq və onlara zərər vurmadan, yuxarıdakı 1-ci, 2-ci və 3-cu bəndlərdə göstərilənlər, adekvat və səmərəli hüquqi müdafiə vasitələri, o cümlədən zərurət olduqda məhkəmə qadağanı növündə hüquqi müdafiə vasitələri təmin etməli və ədalətli, bitərəf, vaxtında və həddən artıq yüksək xərcsiz olmalıdırlar. Bu maddəyə müvafiq olaraq qəbul olunan qərarlar yazılı formada çıxarılır və ya protokollaşdırılır. Məhkəmə və imkan daxilində digər orqanların qərarları ictimaiyyət üçün açıq olmalıdır.

5. Bu maddənin səmərəliliyini artırmaq üçün hər bir Tərəf qərarlara baxılmasının inzibati və məhkəmə prosedurlarının açıqlığı barədə məlumatın ictimaiyyətə təqdim edilməsini təmin edir və ədalət mühakiməsinin açıqlığı üçün maliyyə və ya sair əngəllərin aradan qaldırılmasına və ya azaldılmasına kömək məqsədilə müvafiq mexanizmlərin yaradılması məsələsini nəzərdən keçirir.

## Maddə 10
## Tərəflərin müşavirələri

1. Tərəflərin birinci müşavirəsi bu Konvensiya qüvvəyə mindikdən bir ildən gec olmayan müddətdə çağırılır. Bundan sonra Tərəflər növbəti müşavirələri əgər tərəflər başqa qərar qəbul etməzlərsə, ən azı iki ildən bir və ya Tərəflərin hər hansı birinin yazılı müraciəti ilə, Avropa İqtisadi Komissiyasının İcraçı katibinin bu müraciət barədə bütün Tərəfləri xəbərdar etdikdən altı ay müddətində və müraciət Tərəflərin üçdə biri tərəfindən müdafiə olunduğu təqdirdə keçirilir.

2. Tərəflərdən mütəmadi daxil olan məlumatlar əsasında Tərəflər özlərinin müşavirələrində bu Konvensiyanın icrasının gedişinə nəzarət edirlər və bu məqsədlə:

a) Ətraf mühitə dair məsələlərdə məlumatın əldə edilməsində iştirak və ədalət məhkəməsinin açıq keçirilməsi üçün, onların ardıcıl təkmilləşdirilməsi məqsədilə hüquqi və metodoloji yanaşmanın, siyasətin icmalını həyata keçirirlər;

b) Bu Konvensiyanın məqsədlərinə aid olan və tərəflərdən birinin və ya bir neçəsinin iştirakçısı olduğu ikitərəfli və çoxtərəfli müqavilə və ya razılaşmaların bağlanması, icrası sahəsində əldə edilmiş təcrübələri barədə məlumatları mübadilə edirlər;

c) bu Konvensiyanın məqsədlərinə nail olmaq üçün aidiyyəti olan bütün xüsusatların araşdırılması məqsədilə, zəruri olduqda, AİK-nın, habelə digər səlahiyyətli beynəlxalq orqanların, xüsusi komitələrin xidmətlərinə müraciət edirlər.

d) zərurət olduqda, istənilən köməkçi orqan təsis edirlər;

e) lazımi hallarda bu Konvensiya üçün protokollar hazırlayırlar;

f) bu Konvensiyaya dəyişikliklər edilməsi haqqında təklifləri nəzərdən keçirir və təsdiq edirlər.

g) bu Konvensiyanın məqsədlərinə nail olmaq üçün tələb olunan hər hansı əlavə tədbirləri nəzərdən keçirir və qəbul edirlər;

h) ilk müşavirəsində öz müşavirələrinin və yardımçı orqanlarının müşavirələrinin prosedura qaydalarını nəzərdən keçirir və konsensusla qəbul edirlər;

i) ilk müşavirəsində bu Konvensiyanın 5-ci maddəsinin 9-cu bəndinin müddəalarının həyata keçirilməsi sahəsində qazanılmış təcrübələrini nəzərdən keçirir, beynəlxalq səviyyədə baş verən proseslər və dəyişikliklər də nəzərə alınmaqla bu bənddə göstərilən sistemin ardıcıl inkişafı məqsədilə atılacaq addımların zəruriliyini, o cümlədən bu Konvensiyanın əlavəsinə daxil edilə biləcək ətraf mühitə tullantıların atılmasına aid müvafiq sənədin, daşınma registrləri və ya kadastrlarının işlənib hazırlanması məsələsini həll edirlər.

3. Tərəflərin müşavirəsi, zərurət olduqda, konsensus əsasında maliyyə müddəalarının müəyyən edilməsi məsələsini nəzərdən keçirə bilər.

4. Birləşmiş Millətlər Təşkilatı, onun ixtisaslaşdırılmış idarələri və beynəlxalq Atom Enerjisi agentliyi, habelə bu Konvensiyanın Tərəfi olmayan, lakin Konvensiyanın 17-ci maddəsinə əsasən onu imzalamaq hüququ olan hər hansı dövlət və ya regional iqtisadi inteqrasiya təşkilatı və bu Konvensiyanın aid olduğu sahələrdə səlahiyyətlərə malik olan hər hansı hökumətlərarası təşkilat Tərəflərin müşavirələrində iştirak edə bilərlər.

5. Bu Konvensiyanın aid olduğu sahələrdə səlahiyyətlərə malik olan və Tərəflərin müşavirəsində təmsil olunmaq arzusu barədə Avropa İqtisadi Komissiyasının İcraçı katibinə məlumat vermiş hər hansı qeyri-hökumət təşkilatı, buna müşavirədə iştirak edən Tərəflərin ən azı üçdə biri etiraz etməzsə, müşahidəçi qismində iştirak hüququna malikdir.

6. Yuxarıdakı 4-cü və 5-ci bəndlərin məqsədləri üçün, yuxarıdakı 2 h bəndində sadalanan prosedura qaydaları müşavirədə iştirakın açıqlığına dair prosedurlara və digər müvafiq şərtlərə aid praktiki mexanizmləri nəzərdə tutur.

## Maddə 11
## Səs hüququ

1. Hər bir Tərəf, aşağıdakı 2-ci bənddə nəzərdə tutulan hallar istisna olmaqla, bir səsə malikdir.

2. Regional iqtisadi inteqrasiya təşkilatları, onların səlahiyyətlərinə aid olan məsələlər üzrə, onun üzvü olan, bu Konvensiyanın Tərəflərin sayına bərabər səslərin miqdarına malik səs hüququ həyata keçirir. Onların üzvü olan dövlətlər öz səs hüquqlarından istifadə etdikləri təqdirdə, belə təşkilatlar həmin sayda səs hüququnu itirirlər və ya əksinə.

## Maddə 12
## Katiblik

Avropa İqtisad Komissiyasının İcraçı katibi aşağıdakı katiblik funksiyalarını həyata keçirir:

a) Tərəflərin müşavirələrini çağırır və hazırlayır;

b) Tərəflərə məruzələri və bu Konvensiyanın müddəalarına müvafiq olaraq alınmış digər məlumatları çatdırır;

c) Tərəflərin müəyyən etdiyi sair funksiyaları həyata keçirir.

## Maddə 13
## Əlavələr

Bu Konvensiyanın əlavələri onun ayrılmaz tərkib hissəsini təşkil edirlər.

## Maddə 14
## Konvensiyaya düzəlişlər

1. Hər bir Tərəf bu Konvensiyaya düzəlişlər təklif edə bilər.

2. Bu Konvensiyaya təşkil olunan hər hansı düzəlişin mətni yazılı şəklidə Avropa İqtisadi Konvensiyasının icraçı katibinə təqdim edilir. O isə, öz növbəsində, onu qəbul edilməsi nəzərdə tutulan Tərəflərin müşavirəsi başlamazdan ən azı doxsan gün əvvəl bütün Tərəflərə göndərir.

3. Tərəflər bu Konvensiyaya təqdim edilən istənilən düzəlişlərin konsensus yolu ilə qəbul edilməsinə dair razılığın əldə olunması üçün bütün vasitələr tükənmişsə, razılıq isə əldə edilməmişsə, düzəliş, son tədbir kimi, müşavirədə iştirak edən və səsvermədə iştirak edən Tərəflərin dörddə üç hissəsinin səs çoxluğu ilə qəbul edilir.

4. Depozitari yuxarıdakı 3-cü bəndə əsasən qəbul edilmiş bu Konvensiyaya düzəlişləri ratifikasiya, təsdiq və ya qəbul etmək üçün bütün Tərəflərin nəzərinə çatdırır. Bu Konvensiyaya düzəlişlər, əlavələrə düzəlişlərdən başqa, Depozitarinin bu Tərəflərin ən azı dörddə üçündən onların ratifikasiya, təsdiq və ya qəbul edilməsi barədə xəbərdarlıq aldığının doxsanıncı günü onu ratifikasiya, təsdiq və ya qəbul edən tərəf üçün qüvvəyə minir. Bundan sonrakı hər hansı Tərəf üçün bu düzəlişlərin ratifikasiya, təsdiq və ya qəbul edilməsi barədə sənədin saxlanmaq üçün verildiyi gündən sonrakı doxsanıncı gündə düzəlişlər qüvvəyə minir.

5. Bu Konvensiyaya əlavəyə hansısa düzəlişi təsdiq edə bilməyən hər hansı Tərəf, düzəlişin qəbul edilməsi haqqında məlumatı aldığı tarixdən on iki ay ərzində, bu barədə yazılı şəkildə Depozitarini xəbərdar edir. Depozitari hər hansı belə xəbərdarlığın alınması barədə təxirəsalınmadan bütün Tərəflərə məlumat verir. Hər hansı Tərəf özünün ilkin bəyanatından istədiyi zaman imtina edərək, düzəlişləri qəbul edə bilər və qəbul edilməsi haqqında sənəd Depozitariyə saxlanmaq üçün verildikdən sonra əlavəyə həmin düzəlişlər həmin Tərəf üçün də qüvvəyə minmiş olur.

6. Depozitarinin yuxarıdakı 4-cü bənddə nəzərdə tutulan qaydada məlumatı göndərdiyi tarixdən on iki ay sonra, yuxarıdakı 5-ci bəndin müddəalarına müvafiq olaraq Depozitariyə xəbərdarlıq təqdim etməyən Tərəflər üçün düzəliş qüvvəyə minir, bir şərtlə ki, Tərəflərin üçdə birindən çox olmayan hissəsi belə xəbərdarlıq etmiş olsun.

7. Bu maddənin məqsədləri üçün “səsvermə zamanı olan və səsvermədə iştirak edən Tərəflər” dedikdə, iştirak edən və “lehinə” və ya “əleyhinə” səs verən Tərəflər başa düşülür.

## Maddə 15
## Uyğunluğun nəzərdən keçirilməsi

Tərəflərin müşavirəsi bu Konvensiyanın müddəalarının yerinə yetirilməsinə baxılması üçün konsensus əsasında qeyri-qarşıdurma, qeyri-məhkəmə və məsləhət xarakterli tədbirlər müəyyən edirlər. Bu ictimaiyyətin lazımi iştirakını və bu

Konvensiyaya aidiyyəti məsələlər üzrə ictimaiyyətin nümayəndələrinin məlumatlarına baxılması imkanını əhatə edə bilər.

**Maddə 16**
**Mübahisələrin həlli**

1. Konvensiyanın təfsiri ilə əlaqədar iki və daha artıq Tərəflər arasında mübahisələr olduqda onlar danışıqlar yolu ilə və ya mübahisədə iştirak edən tərəflər üçün məqbul olan, mübahisələrin nizama salınmasının hər hansı digər üsulu ilə çıxış yolu tapmağa çalışırlar.

2. Bu Konvensiyanı imzalayarkən, ratifikasiya, qəbul və təsdiq edərkən və ya ona qoşularkən və ya bundan sonra istənilən anda, Tərəf yuxarıdakı 1-ci bəndin müddəalarına uyğun olaraq, həllini tapa bilməyən məsələlər barəsində üzərinə eyni cür öhdəlik götürmüş hər hansı Tərəflə münasibətlərində zəruri hesab etdiyi, aşağıda göstərilən mübahisəni nizama salma vasitələrindən birini və ya hər ikisini qəbul etməsi barədə Depozitariyə yazılı bəyanat göndərə bilər:

a) mübahisənin Beynəlxalq Məhkəməyə verilməsi;

b) mübahisənin Əlavə II ilə müəyyən edilmiş proseduraya müvafiq olaraq arbitraja verilməsi.

3. Mübahisə edən tərəflər yuxarıdakı 2-ci bənddə göstərilən mübahisənin nizama salınmasının hər iki vasitəsini seçmiş olduqları halda və tərəflər qeyrisi barədə razılığa gəlməmişlərsə, mübahisə yalnız Beynəlxalq Məhkəməyə verilə bilər.

**Maddə 17**
**İmzalanma**

Bu Konvensiya 25 iyun 1998-ci il tarixdə Orhusda (Danimarka), sonra isə 21 dekabr 1998-ci il tarixinədək Birləşmiş Millətlər Təşkilatının Nyu-Yorkdakı Mərkəzi idarələrində Avropa İqtisadi Komissiyasının üzvü olan dövlətlər, habelə İqtisadi və Sosial Şuranın 28 mart 1947-ci il tarixli 36-cı (IV) qətnaməsinin 8-ci və 11-ci bəndlərinə müvafiq olaraq Avropa İqtisadi Komissiyasında məşvərətçi statusa malik olaraq Avropa İqtisadi Komissiyasının üzvü olan suveren dövlətlərin təşkil etdikləri və üzvü olan dövlətlərin bu Konvensiya ilə tənzim olunan məsələlərə aid səlahiyyətləri, o cümlədən bu məsələlərə dair müqavilələr bağlamaq səlahiyyəti verdikləri regional iqtisadi inteqrasiya təşkilatları tərəfindən imzalanmaq üçün açıqdır.

**Maddə 18**
**Depozitari**

Bu Konvensiyanın depozitarisi qismində Birləşmiş Millətlər Təşkilatının Baş katibi çıxış edir.

## Maddə 19
## Ratifikasiya, qəbul etmə, təsdiq etmə və qoşulma

1. Bu Konvensiya onu imzalayan dövlətlər və regional iqtisadi inteqrasiya təşkilatları tərəfindən ratifikasiya, qəbul və ya təsdiq edilməlidir.

2. Bu Konvensiya 22 dekabr 1998-ci il tarixindən Konvensiyanın 17-ci maddəsində göstərilən dövlətlərin və regional iqtisadi inteqrasiya təşkilatlarının qoşulması üçün açıqdır.

3. Yuxarıdakı 2-ci bənddə göstərilməyən və Birləşmiş Millətlər Təşkilatının üzvü olan hər hansı digər dövlət, tərəflərin müşavirəsinin icazəsi ilə, Konvensiyaya qoşula bilər.

4. Bu Konvensiyanın 17-ci maddəsində göstərilən hər hansı təşkilatın üzvü olan dövlətlər Konvensiyanın Tərəfləri olmadıqda, həmin təşkilat bu Konvensiya ilə nəzərdə tutulan bütün öhdəlikləri daşıyır. Həmin təşkilatın bir və ya daha çox üzvü olan dövlətlər bu Konvensiyanın Tərəfləri olduqda, təşkilat və onun üzvü olan dövlətlər bu Konvensiya üzrə öz öhdəliklərini yerinə yetirməyə dair müvafiq məsuliyyətləri barədə qərar qəbul edirlər. Belə hallarda, həmin təşkilat və onun üzvü olan dövlətlər bu Konvensiya ilə nəzərdə tutulan hüquqlardan eyni zamanda istifadə edə bilməzlər.

5. Bu Konvensiyanın 17-ci maddəsində göstərilən hər hansı regional iqtisadi inteqrasiya təşkilatları özlərinin ratifikasiya, qəbul etmə, təsdiq etmə və ya qoşulma barədə qərarlarında bu Konvensiyanın tənzim etdiyi məsələlərdə öz səlahiyyət dairələri barədə bəyanat verirlər. Bu təşkilatlar, habelə öz səlahiyyətlərinin hər hansı əhəmiyyətli dəyişmələri barədə Depozitarini məlumatlandırırlar.

## Maddə 20
## Qüvvəyə minmə

1. Bu Konvensiya ratifikasiya, qəbul etmə, təsdiq etmə və ya qoşulma barədə on altıncı sənədin saxlanmaq üçün təhvil verildiyi tarixdən sonrakı doxsanıncı gündə qüvvəyə minir.

2. 1-ci bəndin məqsədləri üçün hər hansı bir regional iqtisadi inteqrasiya təşkilatı tərəfindən saxlanmaq üçün verilən sənədlərə əlavə kimi nəzərdən keçirilmir.

3. Bu Konvensiyanı ratifikasiya edən, qəbul edən və ya təsdiq edən və ya ratifikasiya, qəbul etmə, təsdiq etmə və ya qoşulma barədə on altıncı sənədin saxlanmaq üçün təhvil verildiyi tarixdən sonra ona qoşulan, həmin Konvensiyanın 17-ci maddəsində göstərilən dövlət və ya təşkilat tərəfindən ratifikasiya, qəbul etmə, təsdiq etmə və ya qoşulma barədə sənədin saxlanmaq üçün təhvil verildiyi tarixdən sonrakı doxsanıncı gündə həmin dövlət və təşkilat üçün bu Konvensiya qüvvəyə minir.

**Maddə 21**
**Konvensiyadan çıxma**

Bu Konvensiyanın hər hansı bir Tərəf üçün qüvvəyə minməsindən üç il sonra istənilən vaxt həmin Tərəf Depozitariyə yazılı xəbərdarlıq göndərməklə Konvensiyadan çıxa bilər. Depozitari xəbərdarlığı alandan sonrakı doxsanıncı gündə Konvensiyadan hər hansı belə çıxma qüvvəyə minir.

**Maddə 22**
**Autentik mətnlər**

Bu Konvensiyanın İngilis, Rus və Fransız dillərində bərabər autentik mətnləri olan əsli, saxlanmaq üçün, Birləşmiş Millətlər Təşkilatının Baş katibinə verilir.

Bunun təsdiqi olaraq, lazımi qaydada səlahiyyətləndirilmiş aşağıda imza edənlər bu Konvensiyanı imzaladılar.

Orhusda (Danimarka) iyirmi beş iyun bir min doqquz yüz doxsan səkkizinci ildə imzalanmışdır.

**Konvensiyaya Əlavə**

**Əlavə 1**

**16-cı maddənin 1a bəndində adıçəkilən fəaliyyət növlərinin siyahısı**

**1. Energetika:**

- neftayırma və qaz emalı zavodları;
- qazın ayrılması və sıxılması qurğuları;
- 50 meqavatt (MVt) və daha çox istilik gücü ilə təmin olunan istilik elektrik stansiyaları və digər yandırma qurğuları;
- koks peçləri;
- atom elektrik stansiyaları və digər atom reaktorları, o cümlədən belə atom elektrik stansiyaları və reaktorlarının demontajı və ya istifadədən çıxarılması (bölünən və öz-özünə yaranan materialların istehsalı və konversiyası üçün olan və maksimum gücü 1 kVt daimi istilik yükündən artıq olmayan tədqiqat qurğuları istisna olmaqla);
- şüalanmış nüvə yanacağının təkrar emalı qurğuları;
- aşağıdakı məqsədlər üçün nəzərdə tutulan qurğular:
- nüvə yanacağının istehsalı və zənginləşdirilməsi;
- şüalanmış nüvə yanacağının və ya yüksək radioaktiv tullantıların emalı;
- şüalanmış nüvə yanacağının tam təmizlənməsi;
- müstəsna olaraq, radioaktiv tullantıların tam təmizlənməsi;
- müstəsna olaraq, istehsal obyekti ərazisindən kənarda olan digər yerlərdə şüalanmış nüvə yanacağının və ya radioaktiv tullantıların saxlanması (10 ildən artıq müddət üçün planlaşdırılan).

**2. Metalların istehsalı və emalı:**

- metal filizlərinin (sulfat filizi da aid olmaqla) yandırılması və ya əridilməsi üçün qurğular;
- poladlıq, çuqun və ya polad istehsalı (ilkin və ya təkrar ərinti) üçün qurğular, məhsuldarlığı saatda 2,5 tondan artıq olan fasiləsiz tökmə də daxil olmaqla;
- qara metal emal edən qurğular:

i) isti yayma stanları, istehsal gücü saatda 20 ton xam poladdan artıq olan;

ii) dəmirçi çəkicləri, hər çəkic üçün enerjisi 50 kc, sərf olunan istilik gücü 20 MVt-dan artıq olan;

iii) çiləmə üsulu ilə qoruyucu metal örtüklərin çəkilməsi, saatda 2 tondan artıq xam metal verilməsi ilə;

- qara metal tökmə, istehsal gücü gün ərzində 20 tondan artıq olan;
- aşağıdakı məqsədlər üçün nəzərdə tutulan qurğular

i) metallurgiya, kimya və ya elektroliz prosesləri vasitəsilə filizdən, konsentratlardan və ya təkrar emal materiallarından turşuya davamlı əlvan metalların istehsalı;

ii) əlvan metalların əridilməsi, ərintilər hazırlanması, habelə məhsulların rekuperasiyası (təmizlənməsi, tökmə istehsalatı və s.) da daxil olmaqla, gün ərzində əritmə gücü qurğuşun və kadmium üçün 4 tondan və ya digər metallar üçün 20 tondan artıq olan;

- elektroliz və ya kimyəvi proseslərdən istifadə etməklə metalların və plastik materialların səthi emalı üçün qurğular, emal üçün istifadə olunan çənlərinin həcmi 30$m^3$-dən artıq olmayan.

**3. Mineral xammal emalı sənayesi:**

- fırlanan yanma sobalarında sement klinkeri istehsalı üçün qurğular, gün ərzində istehsal gücü 500 tondan artıq olan və ya fırlanan yanma sobalarında və ya digər sobalarda əhəng istehsalı üçün qurğular, gün ərzində istehsal gücü 50 tondan artıq olan;
- asbest istehsalı və asbest tərkibli məhsulların hazırlanması üçün qurğular;
- şüşə istehsalı, o cümlədən şüşə lif istehsalı üçün qurğular, gündəlik istehsal gücü 20 tondan artıq olan;
- mineral maddələrin əridilməsi üçün qurğular, mineral lif istehsalı da daxil olmaqla, gündəlik istehsal gücü 20 tondan artıq olan;
- yandırmaqla saxsı məhsullar, o cümlədən kirəmit, kərpic, saxsı plitə, daş keramikası və ya çini məmulatlar istehsalı qurğuları, gündəlik istehsal gücü 75 tondan artıq və ya yandırma sobalarının gücü 4 $m^3$ və sobasına qoyulan maddənin sıxlığı 300kq/m3 olan.

**4. Kimya sənayesi:**

Bu bənddə göstərilən anlayışlar həddində istehsal dedikdə, a-g yarımbəndlərində sadalanan maddələrin və ya maddələr qrupunun kimyəvi emal yolu ilə sənaye miqyasında istehsalı başa düşülür:

a) aşağıda sadalanan əsas üzvi kimyəvi maddələrin istehsalı üçün qurğular:

i) sadə karbohidrogenlər (xətti və ya tsiklik, doymuş və ya doymamış, alifatik və ya aromatik);

ii) oksigen tərkibli karbohidrogenlər, o cümlədən, spirtlər, aldehidlər, ketonlar, karbon turşuları, mürəkkəb efirlər, asetatlar, sadə efirlər, piroksidlər, epoksid qatranları;

iii) kükürd karbohidrogenləri;

iv) azot karbohidrogenləri, o cümlədən aminlər, amidlər, azot birləşmələri, nitrobirləşmələr və ya nitrat birləşmələri, nitrillər, sinaidlər, izosinaidlər;

v) fosfor tərkibli karbohidrogenlər;

vi) hallogenləşdirilmiş karbohidrogenlər;

vii) üzvi-metal birləşmələri;

viii) əsas plastik materiallar (polimerlər, sintetik liflər və sellüloz əsaslı liflər);

ix) sintetik kauçuk;

x) rənglər və piqmentlər;
xi) səthi-aktiv maddələr;
b) aşağıda sadalanan əsas qeyri-üzvi maddələrin istehsalı üçün olan kimyəvi qurğular:
i) qazlar, o cümlədən, ammonyak, xlor və ya hidrogen-xlorid, ftor və ya hidrogen-ftorid, karbon oksidləri, kükürd birləşmələri, azot oksidləri, hidrogen, kükürd dioksidi, xlor anhidridi;
ii) turşular, o cümlədən xrom turşusu, hidrogen-ftorid turşusu, fosfor turşusu, azot turşusu, hidrogen-xlorid turşusu, kükürd turşusu, olium, sulfat turşusu;
iii) qələvilər, o cümlədən, ammonium hidroksid, kalium hidroksid, natrium hidroksid;
iv) duzlar, o cümlədən, ammonium xlorid, kalium xlorat, kalium karbonat, natrium karbonat, perborat, gümüş nitrat;
v) qeyri-metallar, metal oksidləri və ya digər qeyri-üzvi birləşmələr, o cümlədən, kalsium karbid, silisium oksid, silisium karbid;
c) fosfor, azot və ya kalium mineral gübrələri (sadə və ya mürəkkəb gübrələr) istehsalı üçün qurğular;
d) bitkiçilik və biosidlər üçün əsas məhsulların istehsalı kimyəvi qurğuları;
e) əsas əczaçılıq məhsulları istehsalı üçün kimyəvi və bioloji proseslərin istifadə edildiyi qurğular;
f) partlayıcı maddələr istehsalı üçün kimyəvi qurğular;
g) zülali yem əlavələri, fermentlər və digər zülal maddələri istehsalı üçün kimyəvi və bioloji proseslərin istifadə edildiyi kimyəvi qurğular.

**5. Tullantıların emalı və təmizlənməsi:**

- təhlükəli tullantıların yandırılması, rekuperasiyası, kimyəvi emalı və ya basdırılması üçün qurğular;
- kommunal-məişət tullantılarının yandırılması üçün qurğular, məhsuldarlığı saatda 3 tondan artıq olan;
- təhlükəsiz tullantıların təmizlənməsi üçün qurğular, məhsuldarlığı bir gündə 50 tondan artıq olan;
- zibilxanalar, gündə 10 tondan artıq tullantı qəbul edən və ya ümumi həcmi 25 000 tondan artıq olan, təsirsiz tullantı zibilxanaları istisna olmaqla.

**6. Çirkab suların təmizlənməsi üçün qurğular, 150000 nəfərdən artıq əhaliyə ekvivalent məhsuldarlığı olan.**

**7. Sənaye qurğuları**:

a) oduncaq və ya analoji lifli materiallardan sellüloz istehsalı üçün;
b) kağız və karton istehsalı üçün, istehsal gücü gündə 20 tondan artıq olan.

**8.** a) uzaq məsafəli dəmir yollarının və əsas enmə-qalxma zolağının uzunluğu 2100 metr və ya artıq olan aeroportların tikintisi;

b) avtomagistralların və yüksək sürətli yolların tikintisi;

c) dörd və daha çox hərəkət zolağı olan yeni yolların tikintisi və ya iki və ya daha az hərəkət zolağı olan mövcud yolların dörd və ya daha çox hərəkət zolağı yaratmaq məqsədilə yenidən qurulması və/və ya genişləndirilməsi, yeni yolun və ya yolun yenidən qurulmuş və/və ya genişləndirilmiş sahəsinin fasiləsiz uzunluğu 10 km və daha artıqdırsa.

9. a) Daxili su yolları və daxili gəmiçilik limanları, sututumu 1 350 tondan artıq olan gəmilərin daxil olmasına imkan verən;

b) ticarət limanları, sahillə və kənara çıxarılan limanlarla əlaqəsi olan yükləmə və boşaltma körpüləri (bərə aşırımlarının körpüləri istisna olmaqla), su tutumu 1 350 tondan artıq olan gəmiləri qəbul edə bilən.

**10. Yeraltı suların yığılması və ya yeraltı suların süni toplanma sistemlərindən istifadə, yığılan və toplanan yeraltı suların illik həcmi 10 mln. $m^3$-ə ekvivalent və ya artıqdırsa.**

**11.** a) Çay hövzələri arasında mövcud su çatışmazlığının qarşısının alınmasına yönələn su ehtiyatlarının axıdılması işləri, axıdılan suyun həcmi ildə 100 mln.$m^3$-dən çoxdursa;

b) bütün digər hallarda çay hövzələri arasında hövzədən çoxillik su götürməklə su ehtiyatlarının axıdılması işləri, həcmi il ərzində 2 000 mln.m3-dən çox olan, axıdılan suyun həcmi isə bu axının 5 faizindən çox olmadıqda

Hər iki halda içməli suyun axıdılması istisna edilir.

**12. Kommersiya məqsədləri üçün neft və təbii qaz hasilatı, gün ərzində çıxarılan neftin həcmi 500 tondan və qazın həcmi isə 500 000 $m^3$ artıqdırsa.**

**13. Bəndlər və suyun tutulması və ya daimi saxlanması üçün olan digər obyektlər, tutulan və ya saxlanılan suyun yeni və ya əlavə həcmi 10 mln.m3- dən artıqdırsa.**

**14. Qaz, neft və kimyəvi maddələrin nəql edilməsi üçün boru kəmərləri, diametri 800 mm-dən və uzunluğu 40 km-dən artıq olan.**

**15. Quş və donuzların intensiv yetişdirilməsi qurğuları, aşağıda göstəriləndən artıq olduqda:**

a) 40 000 quş üçün;

b) 2000 kökəltmə donuz üçün (30 kq-dan artıq çəkisi olan); və ya

c) 750 ana donuz üçün.

**16. Karxanalar və faydalı qazıntıların açıq üsulla çıxarılması, səth sahəsi 25 hektardan artıq olduqda və ya torf çıxarılması, səth sahəsi 150 hektardan artıq olduqda.**

**17. Elektrik hava xətlərinin çəkilməsi gərginliyi 220 Kv və artıq, uzunluğu 15 km-dən artıq olan.**

**18. Neft, neft kimya və ya kimya məhsullarının saxlanması üçün qurğular, həcmi 200 000 ton və artıq olan.**

**19. Sair fəaliyyət növləri:**

- liflərin və ya parçanın ilkin emalı (yuma, ağartma, merserləşdirmə kimi əməliyyatlar) və ya rənglənməsi üçün qurğular, gün ərzində emal olunan materialların həcmi 10 tondan artıq deyilsə;
- gön və dəri aşılanması üçün qurğular, gün ərzində emal edilən məhsulun həcmi 12 tondan artıq deyilsə:

a) sallaqxanalar, gün ərzində emal gücü 50 ton cəmdəkdən artıq olan;

b) yeyinti məhsulları istehsalı məqsədilə aşağıdakıların emalı və təkrar emalı:

i) heyvan xammalı (süddən başqa), gün ərzində istehsal gücü 75 tondan artıq hazır məhsul olan;

ii) bitki xammalı, gün ərzində istehsal gücü 300 tondan artıq hazır məhsul olan (orta rüblük göstərici);

c) südün emalı və təkrar emalı, gün ərzində əldə edilən südün miqdarı 200 tondan artıq olan (orta illik göstərici);

- ev heyvanlarının cəmdəklərinin və ya heyvandarlıq tullantılarının təmizlənməsi və ya təkrar emal edilməsi üçün qurğular, gündəlik emal gücü 10 tondan artıq olan;
- üzvi həlledicilərdən istifadə etməklə maddələrin, əşyaların və ya məhsulların səthi emalı, o cümlədən bəzəmə, çap etmə, səthini örtmə, yağsızlaşdırma, hidroizolə etmə, növlərə ayırma, rəngləmə, təmizləmə və ya hopdurma üçün qurğular, istehsal gücü saatda 150 kq-dan və ya ildə 200 tondan artıq olan;
- yandırma və ya qrafitləşdirmə yolu ilə kömür (təbii koks) və ya elektroqrafit istehsalı üçün qurğular.

**20. 1-19 bəndləri ilə əhatə olunmayan hər hansı fəaliyyət növü, əgər ətraf mühitə təsirin qiymətləndirilməsi prosedurası çərçivəsində ictimaiyyətin iştirakı milli qanunvericilikdə nəzərdə tutulmuşsa.**

**21. Bu Konvensiyanın 6-cı maddəsinin 1a bəndinin müddəaları müstəsna olaraq və ya əsasən yuxarıda sadalanan, iki ildən az müddətdə yeni üsul və ya**

**məhsulların tədqiqi, hazırlanması və yoxlanması məqsədilə həyata keçirilən layihələrdən heç birinə tətbiq edilmir, əgər onların ətraf mühitə və ya sağlamlığa əhəmiyyətli zərərli təsir göstərməsi imkanı mövcud deyilsə.**

**22. Bu Əlavədə müəyyən olunmuş meyarlara/yuxarı hədlərə cavab verən fəaliyyətin hər hansı dəyişdirilməsi və ya genişləndirilməsi Konvensiyanın 6-cı maddəsinin 1a bəndinin təsiri altına düşür. Fəaliyyətin hər hansı digər dəyişdirilməsi və ya genişləndirilməsi isə Konvensiyanın 6-cı maddəsinin 1b bəndinin təsiri altına düşür.**

**Qeydlər:**

1. Atom elektrik stansiyaları və digər atom reaktorlarında olan bütün nüvə yanacağı və digər radioaktiv çirklənmiş elementlər qurğunun sənaye sahəsindən tam çıxarıldıqdan sonra, onlar belə qurğu hesab edilmirlər.
2. Bu Konvensiyanın məqsədləri üçün "aeroport" dedikdə, Beynəlxalq mülki aviasiya təşkilatının təsis edildiyi 1944-cu il Çikaqo konvensiyasında nəzərdə tutulan tərifə müvafiq olan aeroport başa düşülür.
3. Bu Konvensiyanın məqsədləri üçün "yüksək sürətli yollar" dedikdə, 15 noyabr 1975-ci il tarixli Beynəlxalq avtomagistrallar haqqında Avropa Sazişində nəzərdə tutulan tərifə müvafiq olan yol başa düşülür.

**ƏLAVƏ 2**

## Arbitraj

1. Bu Konvensiyanın 16-cı maddəsinin 2-ci bəndinə əsasən, mübahisəsinin arbitraj təhqiqatına verildiyi hallarda, tərəf və ya tərəflər Katibliyi arbitraj təhqiqatının predmeti barədə məlumatlandırır və xüsusilə də, təfsiri və ya tətbiqi mübahisəyə səbəb olmuş bu Konvensiyanın maddələrini göstərir. Katiblik alınmış məlumatı bu Konvensiyanın Tərəflərinə göndərir.

2. Arbitraj məhkəməsi üç nəfər üzvdən ibarətdir. Mübahisədə iştirak edən iddiaçı tərəf və ya tərəflər, həm də digər tərəf və ya tərəflər, hər biri bir arbitr təyin edir. Bu şəkildə təyin edilmiş iki arbitr isə qarşılıqlı razılıq əsasında arbitraj məhkəməsinin sədri funksiyasını icra edəcək üçüncü arbitri təyin edirlər. Arbitraj məhkəməsinin sədri mübahisə edən tərəflərdən hər birinin vətəndaşı və ya həmin tərəflərdən hər hansı birinin ərazisində daimi yaşayış yerinə malik olan və ya onlarda xidmətdə olan bu işə bu və ya digər şəkildə aidiyyəti olan şəxs ola bilməz.

3. İkinci arbitr təyin ediləndən sonrakı iki ay müddətində arbitraj məhkəməsinin sədri təyin ediməmişsə, tərəflərdən birinin xahişi Avropa İqtisadi Komissiyasının İcraçı katibi iki ay müddətinə onu təyin edir.

4. Tərəflərdən biri arbitr təyin etmək barədə müraciət aldıqdan sonra iki ay müddətində arbitr təyin etmirsə, digər tərəf bu barədə Avropa İqtisadi Komissiyasının İcraçı katibini xəbərdar edə bilər. İcraçı katib növbəti iki ay müddətində arbitraj məhkəməsinin sədrini təyin edir. Təyin olunduqdan sonra Arbitraj məhkəməsinin sədri, arbitr təyin etməmiş tərəfdən bunu iki ay müddətində xahiş edir. Əgər həmin tərəf iki ay müddətində bunu etməzsə, Arbitraj məhkəməsinin sədri Avropa İqtisadi Komissiyasının İcraçı katibini bu barədə xəbərdar edir. İcraçı katib həmin arbitri növbəti iki ay müddətində təyin edir.

5. Arbitraj məhkəməsi öz qərarını beynəlxalq hüquq və bu Konvensiyanın müddəaları əsasında çıxarır.

6. Bu əlavənin müddəalarına müvafiq olaraq təsis edilən hər hansı arbitraj məhkəməsi özünün prosedur qaydalarını işləyib hazırlayır.

7. Arbitraj məhkəməsinin prosedur məsələləri və işin mahiyyəti üzrə qərarı üzvlərin səs çoxluğu ilə qəbul edilir.

8. Məhkəmə faktların müəyyən edilməsi üçün bütün lazımi tədbirləri görür.

9. Mübahisənin tərəfləri sərəncamlarında olan bütün vasitələrdən istifadə etməklə arbitraj məhkəməsinin işinə köməklik edir:

a) Müvafiq sənədləri, şərtləri və məlumatı ona təqdim edir;

b) Zəruri olduqda, şahidlərin və ya ekspertlərin çağırılmasına və onların ifadələrinin dinlənməsinə imkan yaradır.

10. Mübahisənin tərəfləri və arbitraj məhkəməsinin üzvləri arbitraj məhkəməsində işə baxılarkən məxfi qaydada aldıqları hər hansı məlumatın məxfiliyinə əməl edirlər.

11. Arbitraj məhkəməsi tərəfindən birinin xahişi ilə müvəqqəti müdafiə tədbirləri tətbiq edə bilər.

12. Tərəflərdən biri arbitraj məhkəməsinə gəlmirsə və ya öz işinin baxılmasında iştirak etmirsə, digər tərəf məhkəmədən işə baxmağı davam etdirməyi və özünün qəti qərarını qəbul etməyi xahiş edə bilər. Tərəflərdən birinin məhkəmədə olmaması və ya tərəflərdən birinin işə baxılarkən iştirak etməməsi işə baxılmasına maneçilik törətmir.

13. Arbitraj məhkəməsi mübahisənin mahiyyətindən yaranan qarşılıqlı iddiaları da dinləyə və onlar barəsində qərar qəbul edə bilər.

14. Arbitraj məhkəməsi işin konkret hallarından asılı olaraq sair qərar qəbul etmirsə, məhkəmə xərcləri, məhkəmə üzvlərinin əməyinin ödənilməsi haqları da daxil olmaqla, mübahisənin tərəfləri tərəfindən bərabər qaydada ödənilir. Məhkəmə özünün bütün xərclərini qeydə alır və bu xərclər barədə mübahisənin tərəflərinə son hesabatı təqdim edir.

15. Bu Konvensiyanın mübahisə predmetinə hüquqi xarakterli marağı olan və iş üzrə qərarın toxuna biləcəyi hər hansı Tərəfi məhkəməsinin icazəsi ilə işə baxılmasında iştirak edə bilər.

16. Arbitraj məhkəməsi təsis olunduğu tarixdən beş ay müddətində, əgər o, bu müddəti beş aydan çox olmamaqla uzatmaq qərarına gəlməzsə, öz qərarını çıxarır.

17. Arbitraj məhkəməsinin qərarı səbəblər izah edilməklə tərtib edilir. Bu qərar mübahisənin tərəfləri üçün qəti və məcburidir. Arbitraj məhkəməsi öz qərarını mübahisənin tərəflərinə və katibliyə göndərir. Katiblik aldığı məlumatı bu Konvensiyanın bütün tərəflərinə göndərir.

18. Məhkəmə qərarının təfsiri və ya yerinə yetirilməsi ilə əlaqədar tərəflər arasında yaranan hər hansı mübahisə, hər hansı bir Tərəf tərəfindən bu qərarı çıxarmış arbitraj məhkəməsinə verilə bilər və ya onun xidmətindən istifadə etmək mümkün olmadıqda, birinci məhkəmənin yaradıldığı qaydada yaradılan digər məhkəməyə verilə bilər.